**Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)**
**Zaqatala filialı**
**2024-2025-ci tədris ili üçün**
**Elmi-Tədqiqat fəaliyyəti üzrə Hesabat**

**Nəşr Fəaliyyəti**
**(Dərs vəsaitləri, tədris proqramları, Dərsliklər)**

1. i.f.d. Raqif Qasımov- "İnsan resurslarının idarə edilməsi" adlı **dərs vəsaiti** hazırlanmışdır.

2. Məmmədov Elşən Qardaşxan, İsmayılova Pərvanə, Kahayeva Zümrüd – "Yaşıl iqtisadiyyatın əsasları" adlı **tədris proqramı** hazırlanmışdır

Akademik heyətin elmi məqalə (tezis) yazımı ilə bağlı məlumat:

**1. Ümumi Statistik Göstəricilər:**

- **Ümumi məqalə sayı:** 33
- **Beynəlxalq səviyyəli məqalə sayı:** 19
- **Yerli səviyyəli məqalə sayı:** 14

**2. Akademik heyətin qoşulduğu konfransların qısa təhlili:**

- **Beynəlxalq konfranslar:**
  - ICİTTBT-2025 (CİT Albaniya)
  - İTTD25 – Ankara Hacı Bayram Vəli Universiteti
  - İSGECT 2025 – Odlar Yurdu Universiteti
  - HCI-E 2024 – Bahçeşehir Universiteti
  - 17th ICoSReSSE – Serbiya
  - İSCEMR- UNEC BMDM

- **Yerli konfranslar:**
  - "UNEC 95: Zaqatala filialının inkişaf perspektivləri" Respublika elmi-praktiki konfransı
  - "İdarəetmədə və Təhsildə Rəqəmsallaşdırma" – Naxçıvan Dövlət Universiteti
  - ADPU Şamaxı, LDU və NDU tərəfindən təşkil olunmuş tədbirlər

**Filialda təşkil olunan Konfrans, Elmi seminar və digər elmi tədbirlər**

1. 02.10.2024 tarixində **"Yaşıl inkişaf: innovasiyaların tətbiqi və iqtisadi siyasət"** mövzusunda seminar keçirilmişdir

2. 08.10.2024 tarixində Azərbaycan Respublikası Dini qurumlarla İş üzrə Dövlət Komitəsinin Zaqatala bölgəsi üzrə şöbəsinin, Zaqatala Rayon İcra Hakimiyyətinin və Azərbaycan Dövlət İqtisad Universitetinin Zaqatala filialının birgə təşkilatçılığı ilə **"Qloballaşan dünyada milli dəyərlərin əhəmiyyəti"** mövzusunda seminar keçirilib

3. 17.10.2024 tarixində COP29 çərçivəsində **"İqlim dəyişmələri" və "Ağıllı ətraf mühit və yaşıl"** seminarı keçirilimişdir.

4. 06.02.2025 tarixində **"Dəyişən dünyada maliyyə texnologiyaları"** adlı elmi seminar keçirilmişdir.

5. 03.03.2025 tarixində "Ümumdünya Vəhşi Təbiət Günü"nə həsr olunmuş **"Biomüxtəliflik – Gələcəyimizin Zənginliyi"** adlı seminar təşkil olunub.

6. 02.05.2025 tarixində "Universitetlərin Regional İnkişafda Rolu" adlı elmi seminar təşkil olunmuşdur. Seminarda ABŞ Seton Hall Universiteti Prof. Dr. Ömer Gökçekuş və UNEC rektorunun müşaviri Dos. Elşən Bağırzadə iştirak etmişlər.

7. 23.05.2025 tarixində "UNEC 95: Zaqatala Filialının inkişaf perspektivləri" adlı Respublika elmi-praktiki konfrans keçirilmişdir. Konfransda Zaqatala RİH nümayəndəsi, UNEC prorektoru, EFTİ deparmatentinin rəhbəri, TMİƏŞ rəhbəri, MDU rektoru, Şəki-Zaqatala Regional Təhsil İdarəsi rəhbəri, Zaqatala Təhsil Sektoru rəhbəri iştirak etmişdir.

## Regional İqtisadiyyat Tədqiqat Mərkəzi

*Elmi seminarlar:* ***2***
*Gənc müəllimlər üçün təlim: "Elmi məqalənin strukturu"*
*Beynəlxalq spiker iştriakı: Sadık Demirbağ (Sakarya Universiteti)*

04.11.2024 tarixində Regional İqtisadiyyat Tədqiqat Mərkəzi tərəfindən *"Ətraf mühitin iqtisadi dəyəri"*adlı elmi seminar keçirilmişdir.

13.02.2025 tarixində gənc müəllimlər üçün *"Elmi məqalənin strukturu"* adlı təlim keçirilmişdir.

15.05.2025 tarixində "İnsan Kapitalının regionun social-iqtisadi inkişafında rolu" adlı elmi seminar keçirilmişdir.

6 elmi Konfransda iştirak olmuşdur. Bunlardan 5-i beynəlxalqdır.

## Tələbələrin Elmi Fəaliyyəti

Elmi seminarlar: **1**
Startap təqdimatları: **1** ("SmartVolt" layihəsi)

1. 20.11.2024-cü il tarixində Tələbə Elmi Cəmiyyətinin təşkilatçılığı ilə "*Dayanıqlı inkişaf və qorunan ətraf mühit"* adlı seminar təşkil olunmuşdur

1. 20.11.2024-cü il tarixində Tələbə Elmi Cəmiyyətinin təşkilatçılığı ilə "*Dayanıqlı inkişaf və qorunan ətraf mühit"* adlı seminar təşkil olunmuşdur.

2. **Ayda Arzumanova** 04.04.2025 tarixində Naxçıvan Dövlət Universitetində keçirilmiş "Elmi İnkişaf: Uğurlar və Çağırışlar" adlı konfransda *"Rəqəmsallaşdırmanın Əmək Bazarına Təsirləri"* adlı məruzə ilə çıxış etmişdir.

\- 26.04.2025 ci il tarixində Tələbə Gənc Tətqiqatçıların VI Beynəlxalq elmi konfransı İNFOTECH-2025 Məqalə Mövzusu: Rəqəmsallaşmanın Əmək bazarına təsirləri

- UNEC:95 Zaqatala filialının inkişaf perspektivləri mövzusunda elmi-praktiki konfrans Məqalənin adı: Rəqəmsal innovasiyaların Əmək bazarına strateji təsirləri

- Azərbaycan Yazıçılar Birliyinin Şimal-Qərb Regional Bölməsi, Azərbaycan Dövlət İqtisad Universitetinin Zaqatala Filialı (UNEC), YAP Zaqatala rayon təşkilatı və Zaqatala rayon Heydər Əliyev Mərkəzinin Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr etdiyi "Müstəqil Azərbaycan İqtisadiyyatında Heydər Əliyevin Rolu" adlı "ESSE" yazı müsabiqəsində üçüncü yerə layiq görülmüşdür.

UNEC İnklüziv Təhsil Mərkəzinin 10 illik yubileyi və Ümummilli Lider Heydər Əliyevin ad gününə həsr olunan 1-30 aprel 2025-ci il tarixlərində keçirilən məqalə müsabiqəsində I yer tutmuşdur

3. **Cavidan Həzizadə** 24.04.2025 tarixində Naxçıvan Dövlət Universitetində keçirilmiş "İdarəetmədə və təhsildə rəqəmsallaşdırma" adlı konfransda *"İdarəetmə və Təhsildə Rəqəmsal Transformasiya: Trendlər, Çağırışlar və Perspektivlər"* adlı məruzə ilə çıxış etmişdir.

- 7 may 2025 tarixində Müstəqil Azərbaycan İqtisadiyyatında Heydər Əliyevin Rolu" adlı "Esse" müsabiqəsində məqaləmlə çıxış edib ikinci yerə çıxmışdır.

- UNEC:95 Zaqatala filialının perspektivləri adlı konfransı üçün 3 məqalə təqdim etmişdir.

1. İnteraktiv təlim və riyaziyyatın tədrisinə fənnaxili və fənlərarası inteqrasiya məsələləri
2. Süni intellekt və rəqəmsal transformasiya: Azərbaycanın iqtisadi inkişafında yeni mərhələ
3. Azərbaycanın Şimal-Qərb bölgəsində sosial-iqtisadi transformasiya və dayanıqlı inkişaf perspektivləri

4. 17.04.2025 tarixində İQ1-22 qrupunda təhsil alan Yalə İsayeva, Arzu Piriyeva, Nazim Kərimov və Çingiz Muradlı AREA Zaqatala ilə birgə ekoloji sensor sistemi ilə təchiz olunmuş, özünü tənzimləyən, günəş enerjili hibrid güc cihazı olan "SmartVolt" adlı startap layihəsini Azərbaycan Texnologiya Universiteti, Azərbaycan Respublikasının Gənclər Fondu, İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin təşkil etdiyi "GreenTech-2" startap və yaşıl texnologiyalar müsabiqəsinin final mərhələsində təqdim etmişlər.

5. ATMU-da 8 may 2025-ci il tarixində Azərbaycan Turizm və Menecment Universitetində (ATMU) Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş gənc tədqiqatçılar üçün təşkil olunan "Azərbaycan turizmi: bu günü və gələcəyi" mövzusunda X Respublika elmi-praktiki konfransında UNEC-in Zaqatala filialının "Turizm işinin təşkili" ixtisası üzrə IV kurs tələbəsi Aytac Mehdiyeva "Şəki – dayanıqlı turizm destinasiyası kimi" mövzusunda hazırladığı elmi məqalə əsasında məruzə ilə çıxış etmişdir. Tədqiqat işinin elmi rəhbəri filialın "İqtisadiyyat və idarəetmə" bölməsinin rəhbəri, b/m Pərvanə İsmayılova olmuşdur.

IV kurs tələbəsi Kainat Əliyeva isə "İcma əsaslı turizm və yerli iqtisadiyyata təsiri" mövzusunda tədqiqat işi ilə çıxış etmişdir. Onun elmi rəhbəri UNEC Regional İqtisadiyyat Tədqiqat Mərkəzinin rəhbəri b/m Ülkər İsfəndiyarova olmuşdur.

Digər iştirakçı, IV kurs tələbəsi Naim Bayramov isə "Şəki: Azərbaycanın ekoturizm destinasiyası" mövzusunda elmi məruzə təqdim etmişdir. Onun tədqiqat işi UNEC Zaqatala filialının müəllimi b/m Əlizadə Nərminin rəhbərliyi ilə hazırlanmışdır.

Eyni zamanda, IV kurs tələbəsi Zeynəb Məmmədli də konfransda "Bakı: Azərbaycanın idman turizm destinasiyası" mövzusunda məqalə əsasında məruzə ilə çıxış etmişdir. Onun da elmi rəhbəri UNEC Zaqatala filialının müəllimi b/m Əlizadə Nərmin olmuşdur.

6. UNEC-95: Zaqtala filialının inkişaf perspektivləri adlı Respublika elmi-praktiki konfrasnında filialn tələbələri Ayda Arzumanova, Cavidan Həzizadə, Şabanov Müsənnif, Babazadı Samirə və Ələkbərov Zeynalabdin tezislə çıxış etmişlər.

7. Şabanov Müsənnif 28.12.2024 tarixində YAŞIL ENERJİYƏ DƏSTƏK İCTİMAİ TƏŞƏBBÜS QRUPU və SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ tərəfindən təşkil olunan Beynəlxalq multidissiplinar konfransda "COP 29 Dünyanın ekoloji rifah və sabitlik platformasıdır" tezisi ilə çıxış etmişdir.